**FƏLSƏFƏ VƏ SOSİOLOGİYA**

https://doi.org/10.59849/3006-1342.2024.1.104
UOT 165.6

*Ş.Ə.Bünyatova*
*Bakı Dövlət Universiteti*
*Bakı ş., Z.Xəlilov küç., 23*
*E-mail: shams.bunyatova@gmail.com*

# HƏQİQƏT VƏ YANILMANIN QARŞILIQLI MÜNASİBƏTİ: FALLİBİLİSM ORTA YOL KİMİ

*Bilik fəlsəfəsinin dixotomik xarakteristikasına nəzər salsaq, fallibilizm anlayışını "qızıl orta" kimi səciyyələndirmək məqsədəuyğundur. Bu mənada, fallibilizm epistemoloji sistemin bir-birinə əks iki qütbü, yəni mütləq həqiqət ideyasını həddindən artıq şişirdən doqmatizm və həqiqətə çata bilməyimizin mümkünsüzlüyünü vurğulayan skeptsizm arasında tarazlıq yaradan ideya kimi dəyərləndirmək mümkündür. Bununla yanaşı, biliyin əldə olunma prosesində yanılmanın mümkünlüyünü istisna etməyən fallibilizm tənqidə açıq bir ideologiya olması baxımından, digərlərinə nisbətdə üstün mövqedədir. Əsas etibarilə, modern fəlsəfədən başlayaraq qnoseoloji arqument kimi formalaşan fallibilizm, XIX əsrdə Ç.Pirs tərəfindən fəlsəfi-epistemoloji dövriyyəyə gətirilmiş və XX əsrdə K.Popper tərəfindən həqiqətin aşkara çıxarılması üçün irəli sürülən falisifikasiya metodunun nüvəsini təşkil etmişdir. XXI əsrdə B.Rid, S. Kohen, S.Haak kimi filosofların tədqiqatlarının əsas mövzusuna çevrilmiş fallibilizm günümüzün aktual ideyalarından biridir.*

*Açar sözlər:* fallibilizm, yanılma, doqmatizm, həqiqət, skeptsizm, absolyutizm

## *Giriş*

"Nisi fallit me animus" ifadəsi demək olar ki, fallibilizmin əsas mahiyyətini bilavasitə açıqlayır. Latıncadan tərcümədə "əgər ağlım məni aldatmırsa" mənasını verən bu ifadə, bir tərəfdən insanın həqiqəti bildiyindən əminliyini vurğulayaraq, digər tərəfdən zehnimiz və qavrayışımızın bizi yanılda biləcəyinə işarə edir [6, s. 138]. Etimoloji cəhətdən də "yanılma", "yalnışlıq" mənasını verən və epistemologiya sahəsində geniş şəkildə istifadə olunan bu tezis "bəşər övladının" biliyinin nisbiliyini nəzərə alaraq, heç bir bilik formasına absolyut həqiqət statusunu vermir. Baxmayaraq ki, fallibilizm termini ilk dəfə, "inanclarımızın heç biri yanılmadan sığortalanmayıb" deyən Çarlz Sanders Pirs tərəfindən elmi-fəlsəfi dövriyyəyə gətirilmiş və son dövrlərdə aktuallaşsa da, skeptik pirronistlər və məntiqçilər arasında mövqe tutan qədim yunan filosofu Karnead, empirist Frensis Bekon, həmçinin modern fəlsəfənin atası Rene Dekartın timsalında deyə bilərik ki, o ideya baxımdan tarixən dərin keşmişə malikdir. Frensis Bekon "Yeni Organon" əsərinə dünyanın nə dərəcədə dərk oluna biləcəyinə dair epistemoloji mübahisənin iki qütbündəki ifrat baxışları tənqid etməklə başlayır. Belə ki, bir tərəfdə həqiqət və onun axtarışlarına dağıdıcı təsir edəcək şəkildə təbiətin bütün əsas qanunlarının kəşf olunduğunu iddia edən doqmatiklər, digər tərəfdə isə ümumiyyətlə, heç bir şeyin bilinə bilməyəcəyini iddia edən qəti skeptisizm tərəfdarları dayanırdı. Bekona görə, hər iki radikal yanaşma "fəlsəfəyə və elmə böyük zərər verdilər. İnsanlarda yalnış inanclar yaratmağa müvəffəq olmaqla yanaşı, tədqiqatların da aparılmasına mane olmağa və dayandırmağa nail olmuşlar". Bunun əvəzinə Bekon doqmatizm və skeptsizm arasındakı yolda diqqətlə irəliləyən pre-Sokratik fəlsəfə nümayəndələrinə tərəfdaşlıq etmişdir. Çünki onlar nə hər şey haqqında ehkam kəsməyə cəhd etmədilər, nə də həqiqəti dərk etmək yolunda ümidsizliyə qapılmadılar, çünki həqiqətə gedən yolun nə dərəcədə çətin olduğunu

anlayırdılar. Bəzən hər şeyin nə dərəcədə "qaranlıq" olduğundan şikayətlənsələr də, həqiqi biliyə çatmaq məqsədlərindən vaz keçmirdilər [4, s. 1-3].

Demək olar ki, identik hadisə ilə Dekart fəlsəfəsini təhlil edərkən də qarşılaşırıq. Belə ki, həqiqət anlayışını bütün avtoritar xarakterli ehkamlardan və yanılmalardan, hər növ doqmatizmin təzyiqindən təmizləmək məqsədilə meydana çıxan modern bilik fəlsəfəsi həqiqətə çatmaq üçün zəkanı yeganə istinad nöqtəsi və nəzarətedici faktor kimi götürməklə öz amalına tamamilə əks bir istiqamətə yönəlmişdir. Biliyin mütləqliyi iddialarını, həmçinin yanılmaları aradan qaldırmaq üçün skeptik metoddan istifadə edən Dekartın öz ağlından şübhə etməməsi artıq modern qnoseologiyanın ziddiyyətli təbiətindən xəbər vermişdir [12, s. 122]. Beləliklə, biliyin əldə olunma prosesini doqmatik ünsürlərdən azad etməyi özünün son idealı və mövcudluğunun mənası kimi müəyyənləşdirən rasionalizm heç bir sorğu-sualsız zəkanı universal qanunverici kimi qəbul etməklə paradoksal situasiya ilə qarşılaşmalı oldu. Nəticədə, biliyi rasional absolyutizmin xüsusi bir növü kimi dəyərləndirməklə, özünün tənqidi-fallibilistik mövqeyini qoruyub saxlaya bilməyən Dekart fəlsəfəsi də karteziyan doqmatizmi kimi fəlsəfi fikir tarixində özünə yer tapdı.

Bununla belə, Dekart skeptsizminin fallibilist yanaşmanın formalaşmasındakı rolunu danmaq olmaz. Giriş hissədə qeyd etdiymiz, "nisi fallit me animus" ifadəsi bir çox hallarda mövcudluğu illuziya kmi təsvir edən və beləliklə də, idrak prosesində yanılmanın qaçınılmazlığını vurğulayan karteziyan fəlsəfəsi ilə əlaqələndirilir. Buradakı animus kəliməsi həm ağıl kimi, eyni zamanda da ruh kimi tərcümə olunur. Belə ki, ikinci təklif olunan variantda bizi yanıldan qüvvə "şeytani ruh" və ya "Dekartın cini" kimi təqdim olunur.

**Fallibilizm skeptsizm və doqmatizmə münasibətdə aralıq mövqe kimi.** Epistemoloq Suzan Haakın qeyd etdiyi kimi, "doqmatizm çox optimist, skeptisizm isə həddən artıq pessimistik yanaşmadır...istənilən inanc yalnış ola bilər deyən Pirsin fallibilizmi isə aralıq qnoseoloji mövqedə dayanır" [9, s. 172]. Bu mənada fallibilizm müasir elm fəlsəfəsinin dixotomik xarakterini əks etdirir [13, s. 44]. Deyə bilərik ki, Pirsin fallibilizmi bu iki ifrat və radikal baxış arasında "qızıl ortadır". Eyni zamanda təmsil etdiyi fəlsəfi ideologiyaya uyğun olaraq, Pirs hər hansı bir nəzəriyyə və mühakimənin yanlışlığı özünü biruzə verənə qədər ondan yararlanmağa və istifadəsinə müsbət münasibət göstərirdi. Beləliklə də, Pirsin yanaşması adətən "praqmatik fallibilizm" kimi bir çox ədəbiyyatlarda qarşımıza çıxır [7, s. 131]. Digər tərəfdən, əgər Dekarta elmi biliyin forması kimi dəyərləndirirdisə, Pirs üçün bilik və ya həqiqət fəaliyyətin nəticəsidir. Həqiqəti sırf rasional xarakterli, apriori biliklərlə əlaqələndirən karteziyan prinsipinə tənqidi aspektdən yanaşan Pirsin falllibilist mövqeyinə əsasən bilik və ya həqiqətə gedən yol yanılmaların da daxil olduğu müddəalar sistemini özündə ehtiva edir. Pirsə görə, bu düşüncə riyazi sistemdə ehtimali iddialar irəli sürüb, təkrar yoxlamalardan keçirərək doğru nəticəyə nail olmaq üçün istifadə olunan iterasiya metodu ilə əlaqəlidir. Yəni həqiqətə gedən yol səhv bir fərziyyədən də başlaya bilər, lakin hər sonrakı addımda bu yanılmaları aradan qaldıraraq, yoxlayaraq ona bir addım da yaxınlaşmış oluruq [3, s. 139]. Fallibilizmi skeptsizimdən fərqləndirən bir nüansa diqqət yetirmək vacibdir. Skeptiklər bütövlükdə bilik sisteminin üzərində "inşa olunduğu" ilkin prinsiplər anlayışına şübhə ilə yanaşırsa, fallibistlər son həqiqət anlayışına qarşı çıxır və biliklərimizi sanki periodik olaraq "dərisini dəyişdirən ilan" kimi təsvir edirlər. Fallibilizm tərəfdarları belə bir mövqedən çıxış edirlər ki, hər hansı bir mülahizə və ya iddia nə dərəcədə əsaslandırılmış olsa belə, hər zaman yanılma payı və ya ehtimalı vardır. İnsan zəkasının yanılmaya meyilliliyini vurğulayan fallibistlər eyni zamanda, heç bir rasional əsaslandırmanın təklif olunan mülahizənin doğruluğunu, beləliklə də, həqiqiliyini mütləq şəkildə təmin etməyə kifayət etmədiyini bildirirlər. Bu kontekstdə, Pirs insan zəkasının doksatik xarakterini vurğulayırdı.

Koqnitiv psixologiya sahəsində aparılmış tədqiqatların əksəriyyəti göstərir ki, insanların yeni iddiaları dəyərləndirməsi və şərhi birbaşa onun dünyagörüşü sistemi ilə əlaqəlidir.

Frensis Bekonun vurğuladığı kimi "insan zəkası bir fikri mənimsədiyi halda, digər fikirləri də onunla uyğunlaşmağa və dəstəkləməyə təşviq edir". Bu mənada qəlibləşmiş inanc sistemimiz yeni baxışların təsdiq və ya inkar olunması prosesində "selektiv impuls" rolunda çıxış edir. Yəni subyekt öz inanclarını təsdiqləyən dəlilləri seçib ayırmağa meyillidir. Bu baxımdan öz baxışları ilə düz mütənasib olan ideyalar qəbul olunduğu halda, subyektin baxışlarına zidd olan olan fikirlər tənqid olunaraq kənarlaşdırılır. Bu proses isə öz növbəsində bir növ "təsdiq illuziyası" yaradır [18, s.59]. Belə ki, Aron Anselin ifadə etdiyi kmi subyektin bilik sistemi "irrasional mənbələr" adlandırılan bir sıra idrak və emosional meyllərin təsiri nəticəsində yanılmalara məruz qalır. Stereotiplər, biliklərimizlə koqnitiv disharmoniyada olan mühakimələrin şəxsi və qrup maraqlarına uyğun şəkildə təhrif etmək meyli, ehkamçı yanaşmalarımız bu mənbələr qəbilindəndir. Bütün bu sadalanan faktorlar yeni bilik sisteminin xəta və yanılmalara qarşı müdafiəsiz, beləliklə də qeyri-şəffaf şəkildə qurulmasının "təminatçılarıdır" [2, s. 411]. Nəticədə insanın mühakimə qabiliyyətinə dair şübhəli məqamlar formalaşır. Con Stüart Millin mövqeyindən yanaşsaq, onlar sanki "öz cəhalətimizi bizdən gizlədən dumanlar" rolunu oynayır. Anselin də qeyd etdiyi kimi, "mühakimə qabiliyyətimiz maraqlarımıza təsir edən məsələlər barədə aydın və obyektiv düşünməni çətinləşdirən, əksər hallarda isə praktiki olaraq qeyri-mümkün edən idraki və emosional stereotiplər tərəfindən mühasirəyə alınmışdır" [2, s. 418]. Bir çox hallarda qərəzsiz və obyektiv davrandığımızı düşünsək də, əslində arqumentləri əldə etmək istədiyimiz nəticələrə uyğun təhrif edirik. Gerçəkdə psixoloqların "obyektivlik illuziyası" adlandırdığı problemdən əziyyət çəkirik. Filosof Natan Balantinin dediyi kimi " qərəzsiz olmaq üçün əlimizdən gələni etməyimiz, bizi yanılmadığımızı düşünməyə sövq edəcək, lakin bu hissə etibar etmək ağlabatan deyil" [5, s. 131].

Sadaladığımız pessimist baxışlarla yanaşı bu məsələyə yanaşmada alternativ kimi daha optimist meyllərlə də qarşılaşırıq. Belə ki, bu kontekstdə, koqnitiv stereotiplər və buna uyğun yanılmalar sırf irrasional anlayış kimi deyil, "məhdud rasionallıq" (Q.Qiqerentser) və ya "instrumental rasionallıq" (C. Brunero, N.Kolodni) kimi şərh olunur [10, s. 1141]. Məhdud koqnitiv resurslara malik olduğumuzu nəzərə alsaq, xəta və yanılmarlarımız da rasional davranışımızın ayrılmaz bir hissəsi kimi götürülməlidir. Digər tərəfdən, zahirən irrasional xarakterli inanclar fərdin məqsədlərinə çatmasında bir vasitə rolunda çıxış etdiyi üçün instrumental rasionalizmin nəticəsi kimi dəyərləndirilməlidir.

İlk baxışdan fallibilizmin səbəbi kimi insan faktoru və ya onun emosional, ruhi, bioloji tərəflərinin təsirilə yaranan çatışmazlıqlar görünə bilər. Bu halda sual yaranır, B. Rasselin "tibbi məhdudiyyətlər" adlandırdığı ehtiyaclar (qidalanmaq, istirahət, yuxu və s.) tipik bir insanın həyatından çıxarılsa, əvəzinə isə ideallaşdırılmış məntiqi zəkaya malik olan "omniscienst" individ yaradılsa, situasiya necə dəyişəcək? Belə ki, bu insanlar ideal rasional zəkaya sahib olduqları üçün "doksatik volyuntarizm" (yəni subyektin azad seçimlər əsasında formalaşdırdığı inanc sisteminin biliyin formalaşması prosesinə təsiri) anlayışı onlar üçün heç bir əhəmiyyət kəsb etməyəcəkdir. Çünki bu halda yalnızca rasional dəlillər həqiqətin mənbələri qismində çıxış edəcəkdir. Ancaq yenə də, subyekt "Dekartın cini"nin təsirlərindən yan keçə bilməyəcəkdir. Belə ki, ideal zəka olmasına baxmayaraq, bilik sistemini formalaşdıran dəlillər biri digəri üçün dayaq olduğu üçün yuxarıdakı ziddiyyətli məqam burada da qarşımıza çıxır. Bu halda, Karl Plantinqanın qeyd etdiyi kimi həqiqət və onun subyektləri "impulsiv dəlillərin" əsirinə çevrilmiş olacaqlar [6, s. 131-132 ].

**Bilik nəzəriyyəsi fallibilizmin bir növü kimi.** Əxlaq fəlsəfəsində də istifadə olunmasına baxmayaraq, fallibilizm termini əsas etibarilə epistemologiya sahəsində müraciət olunan anlayışdır. Baron Rid "Fallibilizm haqqında necə düşünməli ?" adlı məqaləsində qeyd edir ki, bu gün demək olar ki, hər bir yeni bilik nəzəriyyəsi fallibilizmin bir versiyasıdır [22, s. 143]. Tədqiqatçılar elmi nəzəriyyələri daimi yoxlamalardan keçirərək və təkmilləşdirərək

bilik və inanclarımızın fallibilizmdən, yəni yanılma ehtimalından azad olmadığını təsdiqləmiş olurlar. Ronald Şvartz, "Bilik və fallibilizm" adlı əsərində yazır: Falibilizmin tarixi insanların müəyyən dövrlərdə dahiyanə ideyalar icad etmələrinə baxmayaraq, heç vaxt mükəmməl ola bilməyəcəyini və ya inandıqlarının mütləq doğru olduğunu bilə bilməyəcəyi barədə dərketmənin izahıdır... fallibilistlərin insanın və biliyin təbiətinə dair digər baxışlardan əsas fərqi ondan ibarətdir ki, onlar insan idrakının qeyri-məhdud və qüsursuz olmadığını qəbul etməyə hazırdırlar. Falibilistlər üçün hər hansı bir dövrün bilik və ya inancları özündən sonrakı dövrün yeni və daha yaxşı ideyaları ilə əvəz oluna bilər" [23, s. 18]. Bu baxımdan, Pirs bir çox hallarda fallibilizmi bu günədək böyük inkişaf və təkamül yolundan keçmiş "antik həqiqət" anlayışı ilə müqayisə edirdi.

Elmin inkişafının bir çox nəzəriyyələrə yenidən baxılması, bəzən köklü surətdə yenidən dəyişdirilməsi, bəzən isə təkzib olunaraq başqası ilə əvəz olunması ilə şərtlənməsi fallibilistik baxışların mövqeyinin güclənməsinə şərait yaradır. Bu mənada müəyyən bilik və ya inanc sisteminin nöqsansızlığını iddia edən, beləliklə də, fallibilzmə əks mövqedə dayanan fundamentalizm bir sıra çətinliklərlə üzləşir. Rasional mühakimələrin nisbiliyi, elmin ictimai təbiəti, elmi dəlillərin digərləri vasitəsilə sübutü, müşahidənin nəzəri əsasını bu çətinliklərə aid etmək olar. Hər hansı konkret elmi iddianın həqiqət kimi qəbul edilməsi və nəzəriyyə halına salınması prosesində, ona qədərki faktlar bünövrə, "sütun" rolunu oynayır. Bu isə nəticədə, bir-birini isbatlayan, sonsuz doqmatik həqiqətlər çoxluğunun formalaşmasına səbəb olur. Eynşteynin sözləri ilə desək, heç bir sübutlar yığını mənim nəzəriyyəmi mütləq surətdə təsdiq edə bilməz, tək bir əks sübut isə onu təkzib edə bilər. Digər tərəfdən, müşahisə prosesində onun subyektinin "prior" bilikləri və ön mülahizələri, fərziyyələri istər-istəməz bu prosesə təsirini göstərir. Bu baxımdan, proses "neytral" xarakterini itirdiyindən, empirik üsulların nəticələrinin mütləqliyi sual yaradır [19, s. 14-17]. Yuxarıda da qeyd etdiyimiz kimi, Bekon elmi sanki, Sçilla və Xaribda- rasionalizm və skeptisizm arasında qalmış Odissey kimi təsəvvür etmişdi [24, s. 251]. Lakin onun metodunun yalnış anlaşılması nəticəsində yeni ehkam yarandı. Bir sözlə, "emprizmin atası"nın doqmatizmlə mübarizə üçün təklif etdiyi metodun özü də doqmatik inam mənbəyinə çevrildi.

Qeyd etdiyimiz kimi, fallibilizm əsas etibarilə XX əsrin 60-70 ci illərindən etibarən fəlsəfi sferada meydana gələn postpozitivizm nümayəndələrinin qnoseoloji mövqeyini ifadə edən anlayış olmuşdur. Belə ki, postpozitivizm fundamentalizm, rasionalizm və emprizmə, beləliklə də pozitivizmə əks mövqedə dayanan fəlsəfi məktəbdir. Postpozitivizm insan zəkasının və biliyinin mükəmməlliyini, eyni zamanda biliklərimizin mütləq postulatlar üzərində qurulduğu fikrini rədd edərək, əksinə fallibilizmi, yanılmanı həyatın, beləliklə də elmi, fəlsəfi tədqiqatların qaçılmaz faktı kimi qəbul edən fəlsəfi- ideoloji istiqamətdir. Bu məktəbin öndə gedən nümayəndələrindən biri kimi Karl Popper "Fərziyyələr və təkziblər" əsərində yazır, biliyin son, mütləq mənbəyi yoxdur, hər yeni mənbə, hər yeni mülahizə qəbulolunandır və hər biri tənqidə açıqdır. Çünki bizim biliklərimiz təbiəti etibarilə müvəqqətidir və hər zaman da belə olacaqdır. Və bizim iddialarımızı sübut etmək deyil, əksinə falisifikasiya, yəni təkzib etmək imkanımız var. Bəşəriyyətin intellektual tarixinə nəzər salsaq, həqiqət kimi qəbul olunan bir çox ideyaların sonradan yalnışlandığını görə bilərik. Bu aspektdən yanaşsaq, bir nəzəriyyəni isbatlamağa çalışmaq və ya hansısa inancın həqiqiliyini əsaslandırmağa çalışmaq böyük bir xətadır, məntiqi baxımdan qeyri-mümkün bir şeyə cəhd etməkdir [16, s. 94]. Popper yanılmanı və ya fallibilizmi inkişafın əsas hərəkətverici qüvvəsi kimi nəzərdən keçirir. Pirsin təbirincə desək, fallibilizm daimiliyin tələbidir. Pirsə görə, istənilən tədqiqat nəticələri özündə gələcəyin elementlərini də daşıdığı üçün mütləq həqiqət kimi deyil ehtimal və ya fərziyyə kimi qəbul olunmalıdır [1, s. 48].

Rut Vayntraub "Fallibilizm və rasional inanc" adlı məqaləsində insan zəkasının üç "prima facie" səbəbə görə yanılmaya meyilli olduğunu vurğulayır:

1) Bayes teoreminin doqmatizmlə ekvivalentləşdirilməsi. Bu teoremin əsas mahiyyəti, qazanılmış yeni bilikləri əlimizdə olan “köhnə” biliklərlə qarşılaşdıraraq, mümkün qədər qeyri-müəyyənlikdən, yanlışlıqdan qaçmaqdır. Bir sözlə, Bayes teoremi müəyyən bir fikrin həqiqiliyinin və ya yanılma ehtimalının riyazi-statistik yoxlama vasitəsilə ifadəsini nəzərdə tutur. Vayntrauba görə, doqmatizm və Bayes teoremi arasında incə bir sərhəd mövcuddur. Belə ki, bu teoremi yalnış formada şərh edərək istifadə edən şəxs əvvəlki inanc və ya biliklərini doqma kimi qəbul etməyə meyilli olur. Bu kontekstdə, filosof doqmatizmdən uzaqlaşmaq üçün mövcud və potensial biliklərə yanaşmada açıq fikirliliyin, qədərində tənqidin və rasional-elmi skeptsizmin rolunu vurğulayır.

2) İkinci məsələ, hər hansı bi teorem və ya iddianın praktiki nəticələrdən əminlik, onun irrasionallığına gətirib çıxarır .

3) Bir iddianın həqiqiliyindən əminlik onun əldə olunmasında istifadə olunan metodların etibarlılığı ilə üst-üstə düşməlidir. Belə ki, subyekt tədqiqat prosesində yalnış və ya çaşdırıcı metodlara üz tutduqda, sondakı nəticənin də doğruluğu şübhə altına alınır [24, s. 251]. Qeyd etdiyimiz kimi, fallibilizm heç bir inanc, tezis, nəzəriyyə və ya baxışın heç bir zaman qəti şəkldə, rasional olaraq əsaslandırıla bilməyəcəyini ifadə edən epistemoloji yanaşmadır. Belə ki, tərifdən də açıq–aşkar görünür ki, fallibistlərin əsas tənqid obyektlərindən biri epistemoloji əsaslansırmanın mütləqləşdirilməsi ideyasıdır. Bu baxımdan professor Riçard Feldman məsələyə fərqli aspektdən yanaşmışdır. Feldmana görə, S (subyekt) p-yə (mülahizə) inanmaqla yanılsa belə, bəzən S-in p-nin doğruluğunu bilmə ehtimalı var [6, s. 134]. Onu da qeyd etmək zəruridir ki, bu halda epistemik modallar aletik modallarla müqayisədə bir növ ön plana keçir. Təbii ki, bu prosesdə qnoseoloji əsaslandırma, dəlillərin toplanması kimi epistemik standartlarlar da nəzərə alınır. Stüart Kohen isə “Necə fallibilist olmalı?” adlı məqaləsində fallibilizm və skeptsizm arasındakı əlaqəni nəzərdən keçirir. “S (subyekt) R (səbəb) iddiasına əsaslanaraq və ya inanaraq Q haqqında bilik sahibi ola bilər. Ancaq burada R-in doğruluğu mütləq deyil, ehtimali xarakter daşıyır” [8, s. 91] ifadəsi onun fallibilist yanaşmasının əsas prinsipi kimi çıxış edir. Kohen fallibilizmi biliklə şübhə arasında tarazlığı təmin etmək üçün ideal variant hesab edir. Belə ki, fallibilistlər mütləqlik və ya əminlik anlayışı əvəzinə ehtimal anlayışını əsas götürməklə skeptik nəticələrdən yayınmağa nail olur. Çünki həqiqət və ya bilik standartlarına nəzər salsaq, onların həddindən artıq sərt və dəyişməz qaydalara, dəlillərə əsaslandığını görə bilərik. Bu halda, hər hansı bir mülahizəyə həqiqət statusu qazandırmaq üçün, onun tərkibində heç bir halda təzad, şübhə kimi elementlərə yer verilməməlidir. Kohen isə bu cür baxışın əvvəl axır sərt skeptsizmlə üzləşəcəyini, bütün “infallibist nəzəriyyələrin skeptik sona məhkum olduğunu” [8, s. 91] bildirərək, daxilində fallibilizmi ehtiva edən, daha yumşaq və “elastik” bilik, həqiqət modelini təklif edir. Başqa sözlə, mütləq həqiqət yerinə mümkün həqiqət termini onun fəlsəfi-qnoseoloji mövqeyinin əsası kimi çıxış edir. Qeyd etmək vacibdir ki, Kohenin fallibilizmi öz ideya əsasını radikal ehtimal fəlsəfəsinin banisi, amerikalı filosof Riçard Karp Ceffrinin nəzəriyyəsindən götürmüşdür. Cefri 1992-ci ildə çap olunmuş “Ehtimal və mühakimə sənəti” kitabında mütləqliyi biliyin ən mühüm elementi kimi təkzib edərək ənənəvi qnoseoloji baxışlara qarşı çıxır və ehtimal anlayışını biliyin əsas komponenti kimi qəbul olunmasını təklif edir [11, s. 11]. Bu yanaşma bir növ qəlibləşmiş həqiqət standartlarına alternativ kimi çıxış edir.

Çağdaş dövrün koqnitivisti və epistomoloqu, professor Kleyton Litlcon “Konsessiv bilik əlamətləri və fallibilizm” adlı məqaləsində məsələyə Feldman və Kohenin yanaşma tərzinə uyğun perspektivdən baxmışdır. Kleytona görə, “Fallibilizm p-ni bilmək üçün təklif etdiyi dəlillər məntiqi cəhətdən qeyri-p üçün keçərli olsa belə, subyektin p-ni bilə biləcəyi doktrinadır” [14, s. 603]. Yəni subyekt nə isə haqqında həqiqəti bilmək üçün mütləq və ya tam əsaslandırılmış biliyə sahib olmasa da, sondakı nəticənin doğru olma ehtimalı var.

Kleytonun fallibilist yanaşmasına əsasən yanılmalar maneə kimi deyil, əksinə ümumi bilik sisteminin elementləri kimi götürülməlidir. Bu mənada, Kleytonun mövqeyi "həqiqi biliyə aparan yol bəzən yanılmalardan və ya natamam mülahizələrdən keçir" fikrini dəstəkləyən Feldman və Kohenin baxışları ilə oxşar səciyyə daşıyır. Eyni zamanda Kleyton məqaləsində epistemologiya və linqvistik fəlsəfə sahəsində də geniş şəkildə istifadə olunan konsessiv və ya şərti bilik anlayışının fallibilizm ilə əlaqəsinə toxunmuşdur. Konsessiv bilik özündə nisbilik və şərtilik xüsusiyyətlərini daşıyan, eyni zamanda tənqidlərə açıq olan bilik kimi başa düşülür. Konsessiv bilik potensial yanılmaları nəzərə alan bir növ "epistemoloji təvazökarlıq" kimi də xarakterizə olunur. Bu mənada, konsessiv bilik insan qavrayışının məhdudluğunu dərk edən, beləliklə də, həqiqəti yanılmalarsız təsəvvür etməyən fallibilist yanaşmanın nəticəsi kimi çıxış edir. Beləliklə, Kleyton bənzər mövzulu məqalə yazarı, professor Cefri Stenlinin konsessiv biliklərin doğruluq ehtimalı olmaması və aradan qaldırılmalı olan bir problem kimi təsvir etməsinə bir növ tənqidi mövqedən yanaşmışdır [14, s. 618].

S.Kohen 1988-ci ildə məqaləsində qeyd edir ki, "epistemologiya sahəsində fallibilizm demək olar ki, universal miqyasda qəbul olunandır". Onun ardınca Amerikalı filosof Harvi Siqel 1997-ci ildə "indi hər birimiz fallibilistik" deyə elan edir. Belə ki, son dönəmlərin aktual müzakirə mövzusuna çevrilmiş fallibilizm ideyasının tərəfdaşları olduğu kimi, əleyhinə olan fəlsəfi mövqelər də heç də az deyil. Fallibilizmə münasibətdə tənqidi mövqedən çıxış edən amerikalı filosof Laurens Bonjur fallibilizmə zidd fikirlərini "Bilik mifi" adlı əsərində əks etdirmişdir. Ümumiyyətlə, Bonjura görə, biliyin dərəcəsi yoxdur, yəni bilik ya var ya da yoxdur. Bu baxımdan o bilik nəzəriyyələrini iki kateqoriyaya ayırır: zəif bilik nəzəriyyəsi kimi fallibilizm və güclü bilik nəzəriyyəsi kimi isə karteziyan konsepsiyası. Onun nöqteyi nəzərincə, fallibilizmi intellektual əhəmiyyətli bilik konsepsiyası kimi qəbul etmək olmaz. Çünki bu baxışa əsasən bilik anlayışının dəqiq müəyyənləşdirilmiş tərifi yoxdur və bilik qənaətbəxş hesab olunan dəlillərə əsaslanaraq sistemləşdirilir. Bu mənada, fallibilizm fəlsəfi mifdir. Bonjur fallibilizmi mif kimi qələmə verməsini iki arqumentlə əsaslandırır:

İlk növbədə, əsaslandırma səviyyəsinin qeyri-müəyyənliyi. Fallibilizmə görə, bilik üçün mütləqlik deyil, əsaslandırma səviyyəsi daha önəmlidir. Bonjura görə, əsas sual məhz bu səviyyənin müəyyənləşdirilməsi zamanı meydana çıxır. Məsələn hər hansı elmi hipotezi bildiyimizi iddia etmək üçün nə qədər empirik sübut, təcrübə və mütəxəssis rəyinə ehtiyac var? Yəni bu təhlillərin özü hansı dərəcədə etibarlı olmalıdır 70%, 85% yoxsa 99%? Bu kontekstdən yanaşsaq, fallibilizm əsaslandırma səviyyəsi üçün konkret meyar və ya hədd təklif etmir, beləliklə də çaşqınlıq yaradır. İkinci isə müəyyəndirilmiş səviyyənin önəmlilik dərəcəsi. Təsəvvür edək ki, yuxarıda qeyd etdiyimiz problem aradan qaldırılıb. Bu məqamda, yeni bir maneə ilə üzləşirik. Niyə məhz bu müəyyənləşdirilmiş səviyyə hansısa iddianı bilik və ya həqiqət kimi təqdim etmək üçün hədd, meyar kimi qəbul olunmalıdır? [10, s. 1120] Yəni məsələn elmi araşdırmalarda statistik baxımdan 95% əsaslandırılmış hansısa müddəa həqiqət kimi qəbul olunduğu halda, bu dəyərin niyə 94% (bu situasiyada müddəa yalnış hesab olunacaqdır) və ya 96% olmadığına dair sual yaranır. Digər tərəfdən, filosofun fikrincə, Dekart rasionalizminə əsaslanan həqiqət konsepsiyası bilik üçün qəti əminlik standartı tələb etməsi səbəbilə, əksər hallarda bu standarta cavab vermək mümkün olmur. Nəticə etibarilə, Dekartın mövqeyi bizim çox az biliyə malik olduğumuzu vurğulayır ki, bu da adətən onun skeptsizmin bir növü kimi dəyərləndirilməsinə və fallibilistik bilik anlayışına üstünlük verilməsinə gətirib çıxarır. Əksinə, qeyd etdiyimiz kimi fallibilizm həqiqətə aparan yolda yanılma ehtimalını maneə kimi yox, bir çox hallarda keçid kimi qəbul edir. Bonjur bu məsələyə tənqidi aspektdən yanaşır. Belə ki, onun şərhini metaforik dillə izah etsək, deyə bilərik ki, ehtimali xarakterli iddialar və yanılmalar üzərində qurulmuş "bilik nərdivanının" sonunda sanki birdən-birə sehrli səviyyəyə keçərək qəfildən möcüzəvi şəkildə həqiqətlə qarşılaşmış oluruq. Bir sözlə, inanclarımız və ya ehtimallarımız birdən-birə sübuta çevrrilir

[10, s. 1121-1122]. Başqa sözlə, əgər yalan mülahizəni 0, doğru mülahizəni isə 1 ilə əvəzləyərək ikiqiymətli məntiqlə yuxarıdakı problemi 0+0+0=1 kimi formulə ediləcək, qəbul olunmaz və paradoksal hal ilə üzləşmiş olacağıq. Buna misal kimi, Gettier problemini göstərmək olar.

Qeyd olunmuş fəlsəfi baxışları ümumilikdə təhlil etsək, fallibilist nəzəriyyəçilərə "həqiqət kimi dərk etdiyimiz inanclarımızın doğruluğuna qəti olaraq zəmanət verməyən, bununla belə, yanılmalara baxmayaraq həqiqətə, biliyə sahib ola biləcəyimizə inanan şəxs" kimi tərif verən Ceyms Payronun fikri ilə razılaşa bilərik [21, s.518]. Bu yanaşma tərzi, bir çox filosofa cazibədar gəlir. Çünki yuxarıda da vurğuladığımız kimi infallibist baxışların sonu skeptsizmdir və bu səbəblə, fallibilizm yaranacaq təsirlərdən qaçmaq üçün, ən qnoseoloji ideal alternativ hesab olunur. Epistemoloq Stiven Heterinqtona görə, insan məvhumunun koqnitiv məhdudluğunu nəzərə alan və biliyi əlçatan anlayış kimi təsvir edən fallibilizm daha realistik mövqedir. Baxmayaraq ki, skeptsizm və fallibilizm bir-birinə əks qütblərdə qərar tutan fəlsəfi yanaşmalardır, Nottingen universitetinin professoru Maykl Hennon onların kombinasiyasına əsaslanan "fallibilist skeptsizm" terminini təklif edir. Bu halda fallibilizm skeptsizm üçün risk faktoru olmaqdan çıxır. Hennona görə, fallibilist skeptsizmin əsas ideyasını iki istiqamətdə səciyyələndirmək mümkündür:

Birincisi, biliyin əsaslandırma səviyyəsi hər zaman dəqiq xarakterli deyil. Yəni hansısa iddianın həqiqiliyini sübut etmək üçün müəyyən bir dövrdə irəli sürülmüş sübutlardan bir hissəsi, başqa bir dövrdə falisifikasiya oluna bilər.

İkinci isə, gündəlik istifadə olunan bir çox bilik iddialarının əksəriyyətinin yalan olduğunu qəbul olunur.

Elmə dinamik proses kimi yanaşan K.Popper də, klassik ideala əsaslanan mütləq və yanılmaz bilik anlayışına qarşı çıxır. Bütün nəzəriyyə və qanunlar hipotetik və konyuktiv (spekulyativ) anlayışlar hesab olunmalıdır, çünki bizim bütün nəzəriyyələrimiz ehtimal, hipotez və fərziyyə xarakterlidir və belə də qalacaqdır deyən, Popper öz yaradıcılığında fallibilizmi ön plana keçirmişdir. Bu mənada, deyə bilərik ki, Popperin fallibilizmi Pirsə nisbətdə daha radikal xarakterlidir. Popperin təbirincə, həqiqətin kəşfində bu gün üçün ən ideal üsul hesab etdiyi tənqidi metodun əsasını fallibilizm prinsipi təşkil edir. Məhz bu metod heç bir maneəyə baxmayaraq, hakim doğmaları tənqid etməyə şərait yaradaraq elmi obyektivliyi təmin edir. Belə ki, Popperə görə, "elmi obyektivlik tək bir elm xadiminin işinin nəticəsi deyil, əksinə onlar arasındakı dost-düşmən münasibətlərinin, qarşılqlı tənqidin, əməkdaşlıq və rəqabətin ictimai nəticəsidir" [20, s. 305]. Yəni elmi həqiqət sırf ayrı-ayrı alimlərin idrak fəaliyyətinin qnesoloji nəticəsi deyil, elmi ictimaiyyətin qarşılıqlı fəaliyyət prosesində əldə olunmuş sosial əhəmiyyətli nəticəsidir. Popperə görə, obyektiv mənada həqiqət onun faktlarla uyğunluğu və yanılma ilə sıx qarşılıqlı əlaqədə olmasıdır. Bu baxımdan, Popperin fikrincə, fallibilizm həqiqətin mövcudluğuna inanan, digər tərəfdən də ona çata bilmə ehtimalımızı mütləqləşdirməyən bir anlayışdır. Həmişə həqiqətə doğru can atsaq belə, yanılma ehtimalı hər zaman olacaqdır, nəticələrdən heç bir zaman əmin ola bilmərik. Lakin bu məqamda, Popper qeyd edir ki, insan zəkasına olan inamımızı əsla itirilməməli və intellektin gücünü xor görməməliyik [25, s. 62-63]. Bu baxımdan, Popperin irəli sürdüyü falisifikasiya metodunun da mahiyyəti həqiqət və səhv, yanılma arasındakı qarşılıqlı əlaqənin bir daha vurğulanmasıdır.

Riyazi fəlsəfədə absolyutizm-fallibilizm dixotomiyasının əhəmiyyətini ilk vurğulayan filosof kimi İmre Lakatos da bu münasibəti skeptsizm və doqmatizm arasındakı mübahisə ilə əlaqələndirmişdir. Öz fallibilist mövqeyini Popperin "tənqidi fallibilizminə" uyğunlaşdıran Lakatosun fəlsəfi əsərləri fundamentalist məktəblərə alternativ kimi çıxış edən tədqiqatçılar üçün təkan rolunu oynadı [15, s. 223].

*Nəticə*

Müasir fəlsəfi ədəbiyyatda fallibilizmə müxtəlif cür təriflər verildiyini görə bilərik. A.Peçenkinə görə, fallibilizm sanki "Sokrat təbəssümü" ilə "yalnızca bir məsələdə yanılmamalıyıq ki, bütün nəzəriyyələr yalnış ola bilər" deyən filosofun mövqeyidir [15, s. 83]. S.Haakın fikrincə, fallibilizm insanın səhvlərə meylliliyi haqqındadır. P. Ernest Lakatosa istinad edərək, fallibilizmi hər hansı bir qəbul olunmuş biliyin, o cümlədən riyazi biliyin həqiqət kimi modal statusunu itirə bilməsinin nəzəri mümkünlüyüdür. Beləliklə deyə bilərik ki, fallibilizm elmi biliyi təkmilləşdirmək məqsədilə tənqid, təkzib, yeni fərziyyələr irəli sürülməsini zərurət kimi hesab edən və elmi biliyin ehtimali, nisbi təbiəti haqqında yanaşmadır. Bir sözlə, mahiyyət etibarilə, fallibilistlər biliyin son və dəyişməz həddi olmadığına inanaraq, "mənə bir dayaq nöqtəsi verin ki, dünyanı yerindən oynadım" deyən Arximedin istinad nöqtəsini axtarmaqdan imtina edirlər. Biliklərimizi, xüsusilə riyazi əsaslı biliklərimizi nöqsansız, səhvsiz və mütləq kimi qəbul edən absolyutizmlə fallibilizm arasındakı dixotomik münasibət fəlsəfi sferada diqqət mərkəzində dayanan mövzulardandır. Absolyutizm Hegelin metafizik sisteminin, eyni zamanda B.Bozanket, B.Bredli, D.Roysun idealist təlimlərinin, həmçinin absolyutizmi empirizmlə qarşılaşdıraraq qnoseoloji status verən U.Ceyms praqmatizminin tədqiqat obyekti olmuşdur. Absolyutizm-fallibilizm dixotomiyası bir çox hallarda zidd mövqeləri təmsil edən apriorizm və naturalizm məktəblərinin münasibətilə müqayisə olunur [17, s. 21-22]. Bütün yanaşmaları nəzərə alsaq, belə bir nəticəyə gələ bilərik ki, fallibilizm skeptsizm və relyativzmlə əlaqələndirilmiş, eyni zamanda onların müsbət xüsusiyyətlərini özündə cəmləşdirərək formalaşmış sintetik fəlsəfi baxışdır. Müəyyən mənada fallibilizm yoxlama və falisifikasiyanı nəzərə almaqla qurulmuş deduktiv metoda üstünlük verən və həqiqətin varlığını istisna etməyən qnoseoloji sistemin bir elementdir. Bu baxımdan fallibilizmi şüurumuzu absolyutizm illuziyasının zəncirlərindən azad edərək, biliyə daha mütərəqqi və optimist baxış bucağı açan "yumşaq skeptsizm" kimi dəyərləndirmək düzgün olardı. Bir sözlə, fallibilizmə görə, həqiqət anlayışını biliyin bir keyfiyyəti kimi yox, onu biliyə yön verən bələdçi, İ.Kantın dili ilə desək, "requlyativ ideal" kimi xarakterizə etmək daha məqsədəuyğundur.

ƏDƏBİYYAT


1. Almeder R. The Philosophy of Charles S.Peirce: A Critical Introduction (APQ), Maryland: Rowman and Littlefield, 1980. 205 p.
2. Ancell Aaron. The Fact of Unreasonable Pluralism. Journal of the American Philosophical Association , Vol 5, No 4, 2019. 410-428 p.
3. Антаков С.М. Проблема веры и знания в соотнесении с категориями эпистемологического фундаментализма и фаллибилизма. Философия Културология, Вестник Нижегородского университета им. Н.И.Лобачевского. Серия: Социальные науки, 2009, № 4, с. 138-144.
4. Bacon F. Selected philosophical works. Indianapolis: Hackett, 1999. 328 p.
5. Ballantyne N. Knowing Our Limits. Oxford: Oxford University Press, 2019. 344 p.
6. Bernecker S. Pritchard D. The Routledge Companion to Epistemology, New York: Routledge, 2011, 944 p.
7. Бунько В.А. Пути к теории Чарльза Пирса и Карла Поппера, Вестник, Ленинградского государственного университета имени А.С.Пушкина, Том 2. № 2, 2010, с 123-132.
8. Cohen S. How to Be a Fallibilist, Philosophical Perspectives: Epistemology, Vol 2, Atascadero, CA: Ridgeview Publishing, 1988, 91-123 p.
9. Haack S., Descartes, Peirce and the Cognitive Community, The Monist, Vol.65, No.2, 1982 , p. 156-181.

10. Hannon M. Fallibilism and the value of knowledge, Synthese Vol. 191, No. 6, 2014, p. 1119-1146.
11. Jeffrey R. Probability and the Art of Judgment, Cambridge: Cambridge University Press, 1992. 244 p.
12. Kaya K. “Descartes’ın Epistemolojisi ve Foucault’nun Eleştirisi: Akıl ve Akıl Dışılık Bağlamında Bir Eleştiri” Kaygı Cilt 9, Sayı 14, 2010, s. 111-122.
13. Komendzinski T. Fallibilism and Progress of Science, Theoria et Historia Scientiarum, Vol 1, № 1, 1991, p. 43-57.
14. Littlejohn C. Concessive Knowledge Attributions and Fallibilism, Philosophy and Phenomenological Research Vol. 83, No. 3 ,2011. 603-619 p.
15. Лолли Г. Философия математики: наследие двадцатого столетия / пер. с итал. А.Л.Сочкова, С.М.Антакова. Нижний Новгород: Издательство Нижегородского госуниверситета, 2012. 299 с.
16. Magee Bryan, Karl Popper’in Bilim Felsefesi ve Siyaset Kuramı, çev. Mete Tunçay ve Şahin Alpay, îstanbul: Remzi Kitabevi. 2017, 150 s.
17. Медведев Н.В Философская проблема обоснования математического знания: от абсолютизма к фаллибилизму, Вестник Тамбовского университета. Серия: Гуманитарные науки. Вопросы теории и методологии. выпуск 8 (136), 2014, с. 20-34.
18. Milton L. and Charles S.T. The Rationalizing Voter. UK: Cambridge University Press, 2013, 300 p
19. Philips D.C., Nicholas C.B. Postpositivism and Educational Research, Maryland: Rowman & Littlefield, 2000.112 p.
20. Поппер К. Эволюционная эпистемология и логика социальных наук, (пер. с англ. Д.Г.Лахути). М: Едиториал, 2000. 464 с.
21. Pryor J. The skeptic and the dogmatist. Noûs, Vol. 34 No 4, 2000. 517-549 p.
22. Reed B. How to think about fallibilism, Philosophical Studies: An İnternational Journal for Philosophy in the Analytic Tradition, Vol.107, No.2 , 2002, p.143-157.
23. Swartz R., Perkinson H., & Edgerton S. Knowledge and fallibilism. New York: New York University Press, 1980. 152 p.
24. Weintraub R. Fallibilism and Rational Belief, The British Journal for the Philosophy of Science Vol. 44, No. 2 ,1993, p. 251-261.
25. Завьялова М.П. Научная истина в контексте коммуникативной рациональности (Case Study: К.Поппер об истине как социальном результате взаимной критики ученых), Проблема истины в философии и науке, Том 270, 2008, 58-65 с.

УДК 165.6

*Ш.А.Бунятова*
*Бакинский Государственный Университет*

## ВЗАИМООТНОШЕНИЯ МЕЖДУ ИСТИНОЙ И ЗАБЛУЖДЕНИЕМ: ФАЛЛИБИЛИЗМ КАК СРЕДИННЫЙ ПУТЬ

*РЕЗЮМЕ*

*Ключевые слова:* фаллибилизм, заблуждение, догматизм, истина, скептицизм, абсолютизм

Учитывая двойственные характеристики эпистемологии, концепцию фаллибилизма уместно охарактеризовать как "золотую середину". В этом смысле

фаллибилизм можно рассматривать как идею, создающую баланс между двумя противоположными полюсами эпистемологической системы, а именно догматизмом, преувеличивающим идею абсолютной истины, и скептицизмом, подчеркивающим невозможность ее достижения. В то же время фаллибилизм, не исключающий возможности ошибки в процессе получения знания, превосходит другие идеологии в том, что является идеологией, открытой для критики. В основном сформировавшись как эпистемологический аргумент, начиная с современной философии, фаллибилизм был введен в философско-эпистемологический оборот К.Пирсом в XIX веке и лег в основу метода фальсификации, выдвинутого К.Поппером в XX веке. В XXI веке фаллибилизм, ставший главной темой исследований таких философов, как Б.Рид, С.Коэн и С.Хаак, является одной из актуальных идей современности.

UDC 165.6

*Sh.A.Bunyatova*
*Baku State University*

THE RELATIONSHIP BETWEEN TRUTH AND ERROR:
FALLIBILISM AS A MIDDLE WAY
*SUMMARY*

*Key words:* fallibilism, error, dogmatism, truth, skepticism, absolutism

Considering the dual characteristics of epistemology, it would be appropriate to characterize the concept of fallibility as the "golden mean". In this sense, fallibility can be considered as an idea that creates a balance between the two opposite poles of the epistemological system, namely dogmatism, which exaggerates the idea of absolute truth, and skepticism, which emphasizes the impossibility of reaching it. At the same time, fallibility, which does not exclude the possibility of error in the process of acquiring knowledge, is superior to others in terms of being an ideology open to criticism. Shaped as an epistemological argument starting from modern philosophy, fallibilism was put into philosophical-epistemological practice by C. Peirce in the 19th century and formed the core of the falsification method proposed by K. Popper in the 20th century. In the 21st century, fallibilism has become the main research topic of philosophers such as B. Reed, S. Cohen and S. Haak, and is one of the current ideas of our time.

***Daxil oldu: 16.11.2023-cü il***